

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 88 (21.240)

*6 may 2015-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Mayın 5-də Bakıda "İnturist" otelinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "İnturist" otelinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı otelin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyevə otel barədə ətraflı məlumat verildi. Qeyd edildi ki, beşulduzlu bu otel "Absheron Hotel Group"a aiddir. Yeni otel vaxtilə Bakıdakı "İnturist" mehmanxanasının arxitektura üslubunda inşa edilib. Beşmərtəbəli binada 150 standart və suit nömrə var. Otaqların hamısı müasirliyi və rahatlığı ilə seçilir. Otelin özəlliyini artıran cəhətlərdən biri də otaqların eyvanlarından Xəzər dənizinə və sahilboyu Bakı bulvarına açılan mənzərədir. Otaqların hamısı sürətli internet, havalandırma və digər zəruri sistemlərlə təchiz olunub. Oteldə SPA, kitabxana, iclas zalı, restoran da var. Buradakı şərait Bakının keçmiş əfsanəvi "İnturist" mehmanxanasının ab-havasını xatirələrdə canlandırır.

Otellə tanışlıqdan sonra dövlətimizin başçısı kollektivlə görüşdü.

Sonda xatirə şəkli çəkdirildi.



# Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir

Mayın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində əkinəyararlı torpaqlardan istifadənin və əhaliyə göstərilən xidmətlərin vəziyyəti barədə müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq demişdir: "Bu gün ölkəmizdə kənd təsərrüfatının inkişafı sahəsində kompleks tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə, eləcə də muxtar respublikada aqrar sektorda hərtərəfli inkişafa nail olunmuşdur. Dövlət başçısının kənd təsərrüfatının inkişafının stimullaşdırılması məqsədilə imzaladığı 2014-cü il 16 aprel tarixli Fərmanına əsasən, kənd təsərrüfatı texnikaları lizinqə verilərkən dəyərinin 20 faizi ödənildikdə dövlət büdcəsi hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilməsi, eləcə də mineral gübrələrin 70 faiz güzəştlə satışının həyata keçirilməsi əkinçiliyin inkişafına mühüm töhfə vermişdir. Həmçinin meliorasiya və irriqasiya sahəsində həyata keçirilən tədbirlər, müasir hidrotexniki qurğuların istifadəyə verilməsi yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına və əkinəyararlı torpaqlardan səmərəli istifadəyə geniş imkanlar açmışdır".

Müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov və Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı naziri Elşad Əliyev çıxış etmişlər.

Şəhər və rayon İcra hakimiyyətlərinin başçıları, eləcə də aid mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri müzakirə olunan məsələ ilə bağlı məlumat vermişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəyə yekun vuraraq demişdir: "Bu gün muxtar respublikada həyatın bütün sahələrində inkişaf meyilləri qorunub saxlanılır, iqtisadi inkişaf təmin olunur, quruculuq tədbirləri aparılır. Təhsil, səhiyyə müəssisələrində ən müasir avadanlıqlar quraşdırılır, yeni infrastruktur obyektləri istifadəyə verilir. Son 20 ildə muxtar respublikada 180-dən çox təhsil, 200-ə yaxın səhiyyə müəssisəsi, 111 kənd, 3 qəsəbə və 1 şəhər mərkəzi istifadəyə verilmişdir. Əhali fasiləsiz olaraq elektrik enerjisi və təbii qazla təchiz olunur, keyfiyyətli rabitə xidmətlərinin göstərilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Kənd təsərrüfatı sahəsində də tədbirlər diqqət mərkəzindədir. Muxtar respublikanın malik olduğu 550 min 275 hektar torpaq sahəsinin 164 min 269 hektarı və ya 30 faizə yaxını kənd təsərrüfatına yararlıdır. 2015-ci il 1 yanvar vəziyyətinə əkin sahələri 52 min 328 hektar təşkil edir ki, bunun da 40 min 959 hektarı və ya 78 faizi suvarılan torpaqlardır. Əkin sahələrinin 38 min 716 hektarı və ya 70 faizə yaxını xüsusi mülkiyyətdədir".



Qeyd olunmuşdur ki, əkinəyararlı torpaq sahələrindən istifadənin təmin olunması üçün hər il müşavirələr keçirilir, aid orqanlar qarşısında konkret vəzifələr qoyulur. Torpaq mülkiyyətçilərinin marağını artırmaq məqsədilə dövlət tərəfindən müxtəlif stimullaşdırıcı tədbirlər görülür. Yeni suvarma kanalları və nasos stansiyaları istifadəyə verilir, əkin sahələrinin su ilə təminatı yaxşılaşdırılır. Bu tədbirlərin həyata keçirilməsində məqsəd muxtar respublika əhalisinin rifah halını daha da yaxşılaşdırmaqdan ibarətdir. Lakin bəzi yerli və mərkəzi icra hakimiyyəti orqanlarının öz üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələ bilməməsinin nəticəsidir ki, yerlərdə nöqsanlara yol verilir, göstərilən xidmətlərin səviyyəsi aşağı düşür. Əkinəyararlı torpaq sahələri tam həcmdə əkin dövriyyəsinə cəlb olunmur.

Nöqsanların aradan qaldırılması üçün Ali Məclisin Sədri aid təşkilatlara konkret tapşırıqlar vermişdir. Bildirilmişdir ki, hər bir müəssisə və təşkilatda görülən işin keyfiyyəti, ilk növbədə, nizam-intizamın səviyyəsindən asılıdır. İstər şəhər və rayon, istərsə də mərkəzi icra hakimiyyəti orqanları tabeliklərində olan yerli strukturların fəaliyyətinə nəzarəti artırmalı, əmək intizamının gücləndirilməsini, iş vaxtından səmərəli istifadə edilməsini, əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına əməl olunmasını təmin etməlidirlər. Dövlət müəssisə və təşkilatlarında kargüzarlıq qanunvericiliyə uyğun aparılmalıdır. Mərkəzi və yerli icra hakimiyyəti orqanları göstərilən elektron xidmətlərin keyfiyyətinin artırılması, elektron müraciətlərə vaxtında cavab verilməsi və onların qeydiyyatının aparılması üçün təsirli tədbirlər həyata keçirməlidirlər.

Hər il şəhər, qəsəbə və kəndlərimizdə ən müasir informasiya texnologiyaları ilə təchiz olunmuş təhsil müəssisələri tikilib istifadəyə verilir. Bir sıra hallarda yaradılmış imkanlardan səmərəli istifadə olunmur. Təhsil Nazirliyi yerli icra hakimiyyəti orqanları ilə birlikdə bütün ümumtəhsil müəssisələrindəki elektron lövhəli siniflərdə tədrisin təşkilinə diqqəti artırmalı, kompüterlərdən təyinatı üzrə istifadəyə nəzarət olmalıdır. Məktəblərin elektron dərs vəsaitləri ilə təchiz olunması üçün təsirli tədbirlər görülməlidir.

Qeyd olunmuşdur ki, Səhiyyə Nazirliyi tabeliyində olan bütün səhiyyə-sağlamlıq ocaqlarında sanitar-gigiyenik tələblərə əməl olunmasını diqqət mərkəzində saxlamalı, əmək intizamının gücləndirilməsi üçün tədbirlər görməlidir. Həkim ambulatoriyalarının, feldşer-mama məntəqələrinin vaxtında dərman preparatları ilə təchiz olunması, ixtisaslı kadrların seçilib yerləşdirilməsi təmin edilməli, xəstəxanalarda quraşdırılan tibbi avadanlıqların qorunması ilə yanaşı, onlardan səmərəli istifadəyə nəzarət gücləndirilməlidir. Rayon Mərkəzi xəstəxanaları qəsəbə və kəndlərdəki tibb müəssisələrinin fəaliyyəti üçün cavabdeh olmalıdır. Mədəniyyət və Turizm Nazirliyi yerli qurumlara nəzarəti artırmalıdır. İlk növbədə, mədəniyyət müəssisələrində əmək intizamı gücləndirilməli, iş və tədbirlər planlarının vaxtında tərtib edilməsinə və icrasına nəzarət artırılmalıdır. Mədəni-kütləvi tədbirlərin keçirilməsinə, əlamətdar günlərdə mədəniyyət kollektivlərinin çıxışlarının təşkilinə diqqət yetirilməli, kitabxanalarda oxucu günləri, yaradıcı ziyalılarla görüşlər keçirilməli, yaradılmış zəngin kitabxana resurslarından geniş oxucu kütləsinin istifadəsinə nail olunmalı, kənd və qəsəbələrdə əhaliyə göstərilən mədəni xidmətin səviyyəsi yüksəldilməlidir.

Elektrik enerjisi və təbii qaz təchizatında fasiləsizliyin təmin edilməsi barədə tapşırıqlar verən Ali Məclisin Sədri demişdir ki, Dövlət Energetika Agentliyi və "Naxçıvanqaz" İstehsalat Birliyi yerli icra hakimiyyəti orqanları ilə birlikdə nəzarət tədbirlərini gücləndirməli, vaxtaşırı reydlər keçirərək aşkar olunan nöqsanları aradan qaldırmalıdırlar. Müşavirədə digər orqanlar üçün də konkret tapşırıqlar müəyyənləşdirilmiş və qeyd olunmuşdur ki, Rabitə və Yeni Texnologiyalar Nazirliyi ümumtəhsil müəssisələrində internet əlaqəsinin fasiləsizliyi üçün Təhsil Nazirliyi ilə birlikdə müvafiq işlər görməlidir. Yerli icra hakimiyyəti orqanları yerlərdə məişət tullantılarının vaxtında yığışdırılmasını təşkil etməli, müəyyən olunmuş ərazilərdən kənara tullantı atılmasının qarşısı alınmalıdır. Maliyyə Nazirliyi dövlət təşkilatlarında sıradan çıxmış inventarların, səhiyyə müəssisələrində tibbi avadanlıqların, həmçinin təhsil müəssisələrindəki elektron lövhələrin təmiri və ya yenilənməsi, dərman preparatlarının tibb müəssisələrinə verilməsi üçün dövlət büdcəsindən vəsaitin vaxtında ayrılmasına və ondan təyinatı üzrə istifadə olunmasına nəzarəti daha da gücləndirməlidir.

Yerli icra hakimiyyətləri Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə birlikdə reklam daşıyıcılarının, elan və digər informasiya xarakterli lövhələrin qanunvericiliyə uyğun yerləşdirilməsinə nəzarət etməli, bu sahədə mövcud nöqsanlar aradan qaldırılmalıdır. Yerli icra hakimiyyəti orqanları xidmət mərkəzlərinin təyinatına uyğun istifadə olunmasına bilavasitə cavabdehdirlər. Aidiyyəti qurumlar xidmət mərkəzlərinin qorunub saxlanılmasına, eyni zamanda vaxtı keçmiş məhsulların satışının qarşısının alınmasına nəzarəti gücləndirməli, Dövlət Baytarlıq Xidməti xidmət mərkəzlərindəki ət satışı yerlərinin fəaliyyətini diqqət mərkəzində saxlamalıdır. Kənd və qəsəbələrdəki gözəllik salonlarının, bərbərxanaların, dərzi sexlərinin normal fəaliyyətinin təşkili məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tədbirlər görməli, kadrların hazırlanması üçün müvafiq kursların təşkil olunmasını təmin etməli, Səhiyyə Nazirliyi ilə birlikdə təmizliyə və gigiyena qaydalarına əməl olunmasına diqqəti artırmalıdırlar.

Müşavirədə bildirilmişdir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən tikinti aparılan yerin relyefi ətraflı öyrənilməli, tikinti layihələri ciddi şəkildə təhlil olunmalı, tikinti zamanı keyfiyyətli materiallardan istifadəyə nəzarət artırılmalıdır. Qeyd olunan nöqsanların aradan qaldırılması üçün görülən işlərin operativliyi artırılmalıdır. Həmçinin aid mərkəzi və yerli icra hakimiyyəti orqanları yeni tikililərin qorunmasını daim diqqət mərkəzində saxlamalıdırlar. Mərkəzi icra hakimiyyəti orqanları yerli qurumlarının fəaliyyətinə nəzarəti daha da artırmalı, binaların, əmlakın qorunması və səmərəli istifadə olunmasını diqqətdə saxlamalı, vaxtaşırı yerli qurumlarda olmalıdırlar.

Muxtar respublikanın bank və kredit təşkilatları kənd təsərrüfatına ayrılan kreditlərin həcmini artırmalı, əkin üçün kreditlərin verilməsində operativliyi təmin etməlidirlər. Kənd Təsərrüfatı Nazirliyi yerli icra hakimiyyəti orqanları ilə birlikdə əkin üçün yararlı torpaq sahələrinin səmərəli istifadə edilməsinə diqqəti artırmalı, tərtib edilmiş əkin atlaslarına uyğun əkin aparılması üçün torpaq sahiblərini mütəmadi olaraq məlumatlandırmalı, əkilməyən torpaq sahələrini müəyyənləşdirib əkin dövriyyəsinə cəlb edilməsi üçün tədbirlər görməlidir. İstifadəsiz qalmış torpaqların sahibləri ilə maarifləndirici söhbətlər aparılmalı, pay torpaqlarının könüllü birləşdirilməsi əsasında birgə təsərrüfatların yaradılmasına dəstək göstərilməlidir. Kənd Təsərrüfatı Nazirliyi "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə torpaq mülkiyyətçilərinin əkin materialları, keyfiyyətli və məhsuldar toxum sortları ilə təmin edilməsi üçün zəruri tədbirlər görməli, təsərrüfatların kənd təsərrüfatı texnikası və mineral gübrələrlə təminatının yaxşılaşdırılmasına nail olmalıdırlar.

Ali Məclisin Sədri demişdir: "Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi su ehtiyatlarından səmərəli istifadə edilməsi və əkin sahələrinin su ilə təchizatının yaxşılaşdırılması üçün sudan istifadə edilməsinə dövlət nəzarətini gücləndirməli, su bölgüsünə və suvarma rejiminə ciddi əməl edilməsinə nail olmalıdırlar. Təsərrüfatlarda mütərəqqi suvarma metodlarının tətbiqi təşviq edilməli, su kanalları və arxlar vaxtında təmizlənməli, su itkisi aradan qaldırılmalıdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi ilə birlikdə eroziya və şoranlaşmaya qarşı meliorativ və hidrotexniki tədbirlərin aparılmasına diqqəti artırmalıdır. Nazirlər Kabineti torpaqlardan təyinatı üzrə istifadə edilməsinə nəzarəti gücləndirməlidir".

Ali Məclisin Sədri qarşıda duran vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Culfa Rayonlararası Müayinə Mərkəzi istifadəyə verilmişdir






Muxtar respublikada nəqliyyat idarəetmə sisteminin təkmilləşdirilməsi, avtomobillərin texniki vəziyyəti və onların təhlükəsiz hərəkətinin təmin edilməsi diqqət mərkəzində saxlanılır.

Mayın 5-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Culfa Rayonlararası Müayinə Mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Əhməd Əhmədov açılış mərasiminə gələn Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova raport vermişdir.

Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmişdir.

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Əhməd Əhmədov çıxış edərək demişdir ki, bu gün muxtar respublikada daxili işlər orqanlarının fəaliyyəti müasir tələblər səviyyəsində qurulmuş, xidmətin səviyyəsi yüksəldilmişdir. Muxtar respublikada yol hərəkəti təhlükəsizliyinin təmin olunması istiqamətində də əhəmiyyətli tədbirlər həyata keçirilir. Dövlət Yol Polisi İdarəsi yeni inzibati bina, çoxsaylı nəqliyyat və müasir texniki avadanlıqlarla təmin olunmuş, magistral yollarda 6 sürətölçən rəqəmsal radar sistemi quraşdırılmış, xidməti avtomobillərə kompüter və nəzarət-izləmə kamerası qoyulmuşdur. Bütün bunlar nəqliyyat vasitələrinin hərəkətinə nəzarətin günün tələbləri səviyyəsində təşkilinə və yol-nəqliyyat hadisələrinin qarşısının alınmasına xidmət edir. Rayonlararası müayinə mərkəzlərinin yaradılması isə nəqliyyat vasitələrini texniki baxışdan keçirmə prosesini xeyli asanlaşdırmışdır. Əhməd Əhmədov yaradılan şəraitə görə muxtar respublika daxili işlər orqanlarının şəxsi heyəti adından minnətdarlıq etmiş, bundan sonra da qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklərini bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov şəxsi heyəti salamlamış, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Culfa Rayonlararası Müayinə Mərkəzinin istifadəyə verilməsi münasibətilə kollektivi və istifadəçiləri təbrik edərək demişdir: "Bu gün ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar bütün sahələrdə inkişafı təmin etmiş, insanların yaşayış səviyyəsi yaxşılaşmışdır. Əhalinin rifahının yüksəlməsi müasir yaşayış evlərinin tikilməsinə, yeni avtomobillərin alınmasına şərait yaradır. Alınan hər bir avtomobilin texniki baxışdan keçirilməsi isə vacib məsələdir. Muxtar respublikada bu iş diqqət mərkəzində saxlanılır, yeni texniki xidmət sahələri yaradılır. Ötən il Şərur rayonunda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Rayonlararası Müayinə Mərkəzi istifadəyə verilmişdir. Bu gün isə Culfa şəhərində rayonlararası müayinə mərkəzi fəaliyyətə başlayır. Ordubad rayonunda da avtomobillərin müayinə mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulmuşdur".



Ali Məclisin Sədri demişdir: "Avtomobillərin sayının artması hər bir ölkənin inkişaf göstəricisidir. Lakin avtomobillərdən istifadə rahatlıqla bərabər, eyni zamanda müəyyən çətinliklər də yaradır. Bu çətinliklərin yaranmaması üçün, ilk növbədə, müasir sürücülük məktəbləri qurulub istifadəyə verilməli, avtomobillərə vaxtında texniki baxış keçirilməli və müasir yol-nəqliyyat infrastrukturu yaradılmalıdır. Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da rahat yol şəbəkəsi qurulmuş, avtomobillərə vaxtında texniki baxış keçirmək üçün müayinə mərkəzləri yaradılmış, müasir maddi-texniki və tədris bazasına malik olan sürücülük məktəbləri istifadəyə verilmişdir. Bu gün muxtar respublikada fəaliyyət göstərən sürücülük məktəblərində ixtisaslı sürücülər hazırlanır, sürücülük peşəsi hərtərəfli öyrədilir. Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada yol hərəkətinin təhlükəsizliyi təmin edilmiş, qəzaların sayı azalmışdır. Avtomobil qəzalarının sayının azalması isə insanların sağlamlığının və ailələrin bütövlüyünün qorunması deməkdir. Bu mənada Culfa Rayonlararası Müayinə Mərkəzinin istifadəyə verilməsi mühüm əhəmiyyət daşıyır. Müayinə mərkəzində Culfa və Ordubad rayonları üzrə qeydiyyatda olan 7200-ə yaxın nəqliyyat vasitəsinə texniki baxış keçiriləcəkdir".

"Avtomobillərin vaxtında texniki baxışdan keçirilməsi, sürücülük məktəblərində tədrisin düzgün qurulması və ixtisaslı sürücülər hazırlanması, rahat yol infrastrukturunun yaradılması və yol hərəkəti qaydalarına düzgün əməl olunması qəzaların qarşısının alınmasında başlıca amildir", – deyən Ali Məclisin Sədri Culfa Rayonlararası Müayinə Mərkəzində avtomobillərin vaxtında texniki baxışdan keçiriləcəyinə və təhlükəsizlik qaydalarına tam əməl ediləcəyinə əminliyini bildirmiş, kollektivə işlərində uğurlar arzulamış, yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, müayinə mərkəzinin binası 2 mərtəbədən ibarətdir. Birinci mərtəbədə avtomobillərin texniki baxışa hazırlığı, texniki baxışın keçirilməsi, qeydiyyat aparılması üçün zal və xidməti otaqlar, 2-ci mərtəbədə isə iş otaqları və bufet yerləşir. Müayinə mərkəzi bu sahədə tətbiq olunan ən qabaqcıl texnologiyalarla təchiz edilmişdir. Burada 1 kompüter dəsti, 3 monitor qoyulmuş, Türkiyə, İtaliya və Koreya istehsalı olan texniki müayinə avadanlıqları quraşdırılmışdır.

Ali Məclisin Sədri nəqliyyat vasitələrinin texniki baxış və müayinə prosesini izləmişdir.

Bildirilmişdir ki, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununun 30-cu maddəsinə əsasən, kütləsi 3,5 tondan yuxarı olan yük avtomobilləri, avtobuslar, təhlükəli yüklərin daşınması üçün xüsusi təyinatlı nəqliyyat vasitələri ildə bir dəfə, kütləsi 3,5 tondan aşağı olan yük və minik avtomobilləri istehsal olunduğu tarixdən 4 il keçdikdə iki ildə bir dəfə, 10 il keçdikdə isə ildə bir dəfə texniki baxışa təqdim olunmalıdır. Texniki baxış zonasında 5 duracaq vardır. Yeni avadanlıqlar minik və yük avtomobillərinin əyləc sisteminin, mühərrikdən atmosferə atılan işlənmiş qazların tərkibində olan zərərli tullantıların normativ standartlara uyğunluğunun, sükanın idarəetmə qollarının və almacıqlarının yoxlanılmasına, işıqların tənzimlənməsinə və şinlərin protektor naxışlarının ölçülməsinə imkan verir.

Baxışdan keçən avtomobillər hər mərhələni qət etdikcə onun detallarının texniki vəziyyəti barədə məlumatlar kompüterdə əks olunur və Dövlət Yol Polisi İdarəsinin mərkəzi qeydiyyat sisteminə ötürülür. Texniki baxış başa çatdıqdan sonra müayinənin yekun nəticələri nəqliyyat vasitəsinin sahibinə təqdim edilir. Culfa Rayonlararası Müayinə Mərkəzi il ərzində 10 min nəqliyyat vasitəsini müayinədən keçirmək imkanına malikdir.

Ali Məclisin Sədri avtomobillərə texniki baxışla yanaşı, sığorta qeydiyyatının da vaxtlı-vaxtında aparılması barədə tapşırıqlar vermişdir.

Binanın həyətinə asfalt örtük salınmış, avtomobil dayanacağı yaradılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Ulu öndər Heydər Əliyevin misilsiz tarixi xidmətləri daim böyük hörmət və ehtiramla xatırlanır

"Ölkəmizin keçmiş sovetlər dövründə müttəfiq respublikalar içərisində qabaqcıl mövqeyə yüksəlməsi, daha sonra yenidən müstəqil dövlət kimi dünyanın geosiyasi xəritəsində inamla yer alması da fenomenal şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndərin siyasi fəaliyyəti nəticəsində Azərbaycan Respublikası və onun Naxçıvan Muxtar Respublikası bəlalardan xilas oldu, inkişaf yoluna qədəm qoydu".

Bu fikirlər mayın 5-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsində "Heydər Əliyev lektoriyası"nın "Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu" mövzusunda keçirilən 65-ci məşğələsində səsləndirildi.



Məşğələni giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirdi ki, əsl vətəndaş, tarixi şəxsiyyət və ümummilli lider kimi Heydər Əliyev millətini, Vətənini fəlakətdən qurtardı, ölkəmizə sabitlik və xalqımıza firavanlıq bəxş etdi. ***"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub"***, – deyən dahi rəhbərin dövlətçiliyimizin ən ağır günlərində göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyibdir.

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, dosent Emin Şıxəliyev məruzə ilə çıxış edərək bildirdi ki, müstəqil Azərbaycan dövlətinin qurucusu, milli birliyimizi təmin edən Azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı olan ulu öndər Heydər Əliyevin misilsiz tarixi xidmətləri daim böyük hörmət və ehtiramla xatırlanır. Çünki ulu öndər Azərbaycan dövlətinin və xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışıb, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün tarixi addımlar atıb.

"Müstəqil Azərbaycan Respublikasının yaradılması, burada hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı siyasi-hüquqi islahatların aparılması, eyni zamanda milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması yalnız Heydər Əliyev kimi dahi siyasətçi, təcrübəli dövlət xadimi tərəfindən reallaşdırıla bilərdi", – deyən Emin Şıxəliyev vurğuladı ki, 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulu müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaratdı.

Qeyd olundu ki, bu gün Azərbaycan regionun çox mühüm ölkəsidir. O, Cənubi Qafqazda həlledici geosiyasi əhəmiyyətə malikdir. Azərbaycan həm də Şərqə və Mərkəzi Asiyaya açılan "geosiyasi pəncərə"dir. Bu gün respublikamızın inkişafı dünyanın aparıcı dövlətləri ilə müqayisə olunur, Azərbaycan siyasi, iqtisadi, hərbi baxımdan daha da güclənir, beynəlxalq aləmdə nüfuzumuz durmadan artır. Biz bütün bu nailiyyətlərə Heydər Əliyevin işıqlı yolunun uğurla davam etdirilməsi nəticəsində nail olmuşuq.

Məşğələyə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurdu.

**✍ Rauf ƏLİYEV**

*Azərbaycanın özü qədər əbədi*

# Azərbaycanı müstəqilliyə hazırlayan lider

***Azərbaycanın keçdiyi tarixi yola nəzər salarkən, ümumiyyətlə, xalqımızın çoxminillik dövlətçilik tarixini vərəqlərkən aydın olur ki, müxtəlif dövrlərdə Vətənimizə rəhbərlik etmiş elə şəxsiyyətlər olmuşdur ki, onlar öz fəaliyyətləri ilə tariximizdə dərin iz buraxmış, xalqın yaddaşında əbədi olaraq yaşamışlar. Azərbaycan tarixində çox böyük xidmətləri olan bu şəxsiyyətlər nə qədər yüksək zirvələrə qalxsalar da, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyev bu şəxsiyyətlərin fövqündə dayanır.***

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətini nəzərdən keçirərkən aydın olur ki, Corc Vaşinqton ABŞ, Cəvahirləl Nehru Hindistan, Şarl de-Qoll Fransa, Mustafa Kamal Atatürk Türkiyə üçün nə etmişdirsə, dahi rəhbər Heydər Əliyev də Azərbaycan üçün onu etmişdir.

Xalqımızın böyük oğlu Heydər Əliyevə Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə, 1969-1982-ci illərdə yaranan xalq sevgisi 80-ci illərin sonlarında Dağlıq Qarabağ problemi ilə əlaqədar ölkəmizdə yaranmış ümumi böhran, hərc-mərclik, özbaşınalıq şəraitində Azərbaycanın parçalanmaq, dövlətçiliyinin itirilməsi təhlükəsi yarananda onun Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə nəticələndi.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana istər birinci, istərsə də ikinci rəhbərliyinin ilk illərində ölkə ağır günlərini yaşayırdı. Keçən yüzilliyin 60-cı illərində Azərbaycan SSRİ-yə daxil olan 15 müttəfiq respublika içərisində geridə qalmış aqrar ölkə idi. Bütün sahələrdə ittifaq səviyyəsindən geridə qalan ölkədə milli-mənəvi dəyərlər aşınır, elm, təhsil, mədəniyyət bərbad vəziyyətə düşür, milli mentalitetimizə zərbələr vurulurdu. Ulu öndər Heydər Əliyev məhz belə bir şəraitdə Azərbaycanda rəhbərliyə gəldi. Onun apardığı uğurlu siyasət nəticəsində Azərbaycan heç bir vaxt yüksəlmədiyi inkişaf səviyyəsinə qalxdı, sənaye və kənd təsərrüfatı yüksək dərəcədə inkişaf etdi. Azərbaycan bir-birinin ardınca 10 dəfədən çox "Keçici Qırmızı Bayrağ"a layiq görüldü, ordenlərlə təltif olundu, inkişaf səviyyəsinə görə müttəfiq respublikalar arasında ön sıraya keçdi. Respublikanın rəhbəri kimi müdrik şəxsiyyət Heydər Əliyev 1976-cı ildə Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd seçildi. 1979-cu ildə "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görüldü, ən nəhayət, 1982-ci ilin sonlarında dünyanın altıda bir hissəsini əhatə edən SSRİ kimi nəhəng bir dövlətin rəhbər elitasına daxil oldu: Sov.İKP MK Siyasi Bürosunun üzvü seçildi, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin olundu. 1983-cü ildə ikinci dəfə "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görüldü. Belə yüksək bir zirvəni fəth etmək nə ulu öndərdən əvvəl, nə də sonra müsəlman-türk dünyasında heç bir şəxsiyyətə nəsib olmamışdı.

Məhz bu dövrdə Azərbaycanda milli oyanış başlandı. Siyasi hakimiyyətinin birinci dövründə ulu öndər SSRİ-də 70-ci illərdən başlanan böhran nəticəsində Sovet hakimiyyətinin tezliklə süqut edəcəyini əvvəlcədən duymuş, bu baxımdan da Azərbaycanın gələcək müstəqilliyini təmin edəcək bir sıra tədbirlər həyata keçirmiş, həmin illərdə Azərbaycanın iqtisadi müstəqilliyinin əsasları yaradılmışdı. Azərbaycan qüdrətli sənaye və kənd təsərrüfatı ölkəsinə çevrilmişdi. Azərbaycanda pambıqçılıq və üzümçülük sahələrində böyük uğurlar qazanılmışdı. Pambıq istehsalı ildə 1 milyon tonu ötmüş, ildə 3 milyon ton üzüm istehsalı hədəf götürülmüşdü.

Gələcək müstəqil Azərbaycanın kadrlara olan tələbatını ödəmək məqsədilə SSRİ-nin ən məşhur ali məktəblərinə təhsil almaq üçün ildə 1000 nəfərə yaxın gəncin göndərilməsi ulu öndərin uzaqgörən kadr siyasətinin parlaq göstəricisidir. Dahi rəhbər Heydər Əliyev milli hərbçi kadrların yetişdirilməsi sahəsində uğurlu siyasət aparmışdır. Bu bir həqiqətdir ki, sovet dönəmində SSRİ-nin ali hərbi məktəblərinə azərbaycanlıların qəbulu məsələsinə çox ustalıqla yasaq qoyulmuşdu. Lakin görkəmli dövlət xadimi Heydər Əliyev bu qadağaları çətinliklə də olsa, aradan qaldırmışdır. Bakıda və digər şəhərlərdə fəaliyyət göstərən ali hərbi məktəblərdə azərbaycanlı tələbələrin sayı artmağa başlamışdır. Hətta ulu öndər Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılmasına nail olmuşdur ki, burada da, əsasən, azərbaycanlılar təhsil alırdılar. Dahi rəhbər hətta aviasiya sahəsində azərbaycanlılardan ibarət kadr hazırlığı ilə bağlı bir sıra tədbirlər həyata keçirmişdir.

1969-1982-ci illərdə ölkəyə rəhbərlik etdiyi dövr ərzində Onun tərəfindən görülmüş işlər Azərbaycan xalqının maraqlarına xidmət edirdi. Məhz ulu öndərin fəaliyyəti nəticəsində Azərbaycana mərkəzi fondlardan böyük həcmdə vəsait köçürülür, yeni zavodlar, fabriklər tikilirdi. İndi bu zavod və fabriklər Azərbaycanın iqtisadi və sənaye potensialına böyük dəstəkdir. Əgər o illərdə Azərbaycanda iri sənaye infrastrukturu yaradılmasaydı, xüsusilə də neft emalı sahəsində nəhəng qurğular tikilməsəydi, bu gün Azərbaycanın iqtisadi potensialı o qədər də güclü ola bilməzdi.

Bu dövrdə Azərbaycan dili haqqında da ulu öndərin siyasətini unutmaq olmaz. Məhz ümummilli liderimizin təşəbbüsü ilə Azərbaycan dili dövlət dili səviyyəsinə qaldırılmış, Moskvanın güclü təzyiqlərinə baxmayaraq, 1978-ci ildə qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edilmişdir. Azərbaycanda "Sovet türkologiyası" jurnalı nəşr olunmağa başlamışdır. Bütün bunlar – siyasi, iqtisadi və mənəvi sahələrdə həyata keçirilən nəhəng tədbirlər və qeyd olunmayan bir sıra məsələlər Azərbaycanın gələcək müstəqilliyinə xidmət edən siyasətin müxtəlif istiqamətləri idi.

Beləliklə, hələ o zaman Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşaya bilməsi üçün zəruri olan əsaslar – iqtisadi, mənəvi-mədəni potensial yaradılmış, milli kadr problemi həll edilmişdi. O dövrdə iqtisadiyyat, mədəniyyət sahələrində, təhsil sistemində əldə edilən tərəqqi, milli birliyə nail olunması, milli özünüdərkin yüksəlişi müstəqil dövlətin yaranmasına xidmət edən strategiyanın bünövrəsini qoymuşdu. İndi tam qətiyyətlə demək olar ki, bugünkü müstəqil Azərbaycanın əldə etdiyi uğurlar məhz həmin dövrdə müdrik şəxsiyyət Heydər Əliyev tərəfindən yaradılmış möhkəm təmələ əsaslanır.

Ümummilli lider Heydər Əliyev 1990-cı ildə Türkiyə mətbuatına müsahibəsində bu məsələyə toxunaraq demişdir: ***"Mən SSRİ respublikalarının nə vaxtsa müstəqillik əldə edəcəklərini düşünürdüm. O illərdə Azərbaycanın da müstəqil dövlət olmasını arzu edirdim. Məni istefaya getməyə məcbur edənlərin əsas məqsədi Azərbaycanın müstəqillik qazanmasının qarşısını almaq idi".***

Ulu öndərin həyata keçirdiyi nəhəng tədbirlər nəticəsində 1991-ci ildə ölkəmiz öz müstəqilliyini bərpa edərkən SSRİ-yə daxil olan müttəfiq respublikalar içərisində Azərbaycan iqtisadi müstəqilliyə tam hazır olan iki respublikadan biri idi. Təsadüfi deyildir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev bu cəhəti dəfələrlə vurğulamış və demişdir: ***"SSRİ dönəmində Azərbaycanın iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafına, milli kadrların yetişdirilməsinə böyük səylər qoyan Heydər Əliyev sanki nə vaxtsa ölkəmizin müstəqil olacağına inanırdı. Təbii ki, o zamanlar bütün bu işlər görülməsəydi, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı".***

*Beləliklə, ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə ölkəni bütün sahələr üzrə müstəqillik üçün hazırlaması 90-cı illərdə müstəqil dövlət quruculuğunda bir baza, zəmin rolunu oynamış və bu zəmin üzərində müstəqil Azərbaycan dövləti yaradılmışdır. Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizi müstəqilliyə hazırlayan xalqımızın böyük oğlu Heydər Əliyev respublikamıza rəhbərliyinin ikinci dövründə Vətənimizi fəlakətlərdən, ölkəmizi parçalanmaq, müstəqilliyimizi itirilmək təhlükəsindən xilas etmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətinin birinci və ikinci dövrlərindəki fəaliyyətinə nəzər salarkən açıq-aşkar görünür ki, ulu öndər hər iki dövrdə özünün parlaq dühası, qabiliyyəti sayəsində Azərbaycanı dünyanın inkişaf etmiş ölkələri sırasına çıxarmışdır.*

**Hacıfəxrəddin SƏFƏRLİ**
**AMEA-nın müxbir üzvü**

# Naxçıvan Müəllimlər İnstitutunda respublika elmi konfransı keçirilib

***Dünən Naxçıvan Müəllimlər İnstitutunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilmiş "Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi" mövzusunda respublika elmi konfransı keçirilib.***



Konfransın plenar iclasında institutun rektoru, professor Oruc Həsənli çıxış edərək tədbirin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyi dövründə elm və təhsil sahəsinin müasir standartlar səviyyəsində fəaliyyətini diqqət mərkəzində saxlayıb, istər orta, orta ixtisas, istərsə də ali təhsil sistemində bir sıra islahatların həyata keçirilməsini təmin etmək məqsədilə mühüm sərəncamlar imzalayıb.

Sonra ali təhsil ocağının müəllimlərindən tarix üzrə fəlsəfə doktoru Ələkbər Cabbarlının, pedaqogika üzrə fəlsəfə doktoru Lalə Allahverdiyevanın, filologiya üzrə fəlsəfə doktoru Fəxriyyə Cəfərovanın, Şərur rayon Zeyvə kənd tam orta məktəbinin müəllimi Fərmayıl Əsgərovun məruzələri dinlənilib.

Məruzələrdə qeyd edilib ki, ümummilli liderimizin diqqət və qayğısı ilə ölkəmizdə təhsil sahəsində başladılan islahatlar nəticəsində böyük uğurlar əldə edilib. Təhsil sistemində aparılan genişmiqyaslı islahatlar məktəblərdə təlim şəraitinin yaxşılaşmasına, tədrisin keyfiyyətinin yüksəlməsinə və müəllimlərin pedaqoji ustalığının artmasına səbəb olub. Hər bir cəmiyyətdə təhsil aparıcı sahə hesab olunur və cəmiyyətin ümumi səviyyəsinin inkişafında mühüm amil kimi çıxış edir. Bu amil bəşər övladının formalaşdırılması mexanizminə çevrilməklə, onun düşüncə qabiliyyətinin yüksək səviyyəyə çatdırılmasına imkan yaradır. Müasir təhsil sosial praktikanın mürəkkəb bir forması olub, indiki tarixi mərhələdə cəmiyyətin yeniləşdirilməsi və inkişafında mühüm rol oynayır. Bu gün yüksəkixtisaslı mütəxəssis hazırlanması dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu prosesin fəlsəfəsi dövlət başçısının "Biz iqtisadi potensialımızı insan kapitalına çevirməliyik" çağırışında öz əksini tapıb.

Bildirilib ki, ulu öndərimiz Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Sərəncamı təhsil sahəsində gedən proseslərə istiqamətverici rol oynayıb. Bu sahədə yeniliklərin tətbiqi üçün, ilk növbədə, yeni pedaqoji təfəkkürün, yeni pedaqoji yanaşma tərzinin formalaşdırılması vacib hesab edilib. Azərbaycan Respublikasında təhsil sahəsində aparılan islahatların əsas konseptual ideyasını ümummilli liderimizin söylədiyi *"Təhsil sistemində hər bir yeniləşmə inqilabi yolla deyil, təkamül yolu ilə həyata keçirilməlidir", "Biz heç bir ölkənin təhsil sistemini olduğu kimi Azərbaycanda qurmağa çalışmamalıyıq", "Dünyanın inkişaf etmiş ölkələrinin təhsil sistemi ilə, hazırda həmin ölkələrdə təhsil sahəsində aparılmaqda olan islahatlarla yaxından tanış olmalıyıq", "Xalqımızın milli-mənəvi xüsusiyyətlərindən, adət-ənənələrindən, milli mentalitetindən, xüsusən təhsil sahəsində XX əsrdə Azərbaycanda formalaşmış mütərəqqi ənənələrdən səmərəli istifadə etməliyik", "Təhsil sisteminin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrənməli, prioritet sahələri müəyyən etməliyik", "Müstəqil Azərbaycanın təhsil sistemi milli zəminə söykənərək ümumbəşəri dəyərlərdən bəhrələnməlidir"* müddəaları təşkil edir. Müəllim hazırlığında innovasiyalar – interaktiv və ya fəal təlim üsulları məhz çağdaş dünyamızın təhsil sahəsində önəm verdiyi metodikalardandır.

Sonra konfrans öz işini "Heydər Əliyev və müasir təhsil", "Yeni pedaqoji texnologiyalarda pedaqogika və psixologiyanın rolu", "Təhsilin müasir tələbləri və tərbiyə məsələləri", "Fənlərin tədrisi texnologiyaları" adlı bölmə iclaslarında davam etdirib. Bölmə iclaslarında ölkənin və muxtar respublikanın ali, orta ixtisas və ümumtəhsil müəssisələrində çalışan qabaqcıl pedaqoqların məruzələri dinlənilib.

# Ulu öndərin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar konsertlər davam etdirilir



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar mayın 5-də Şərur Rayon Uşaq incəsənət və musiqi məktəblərinin kollektivi Şərur şəhərindəki "Bahar" kinoteatrında, Ordubad rayonunun Vənənd Kənd Uşaq musiqi məktəbinin kollektivi Düylün Kənd Mərkəzində, Babək rayonunun Şıxmahmud Kənd Uşaq musiqi məktəbinin kollektivi Şıxmahmud kənd mədəniyyət evində, Culfa rayonunun Bənəniyar Kənd Uşaq musiqi məktəbinin kollektivi Əbrəqunus kənd mədəniyyət evində, Kəngərli rayonunun Uşaq musiqi məktəblərinin kollektivləri Kəngərli Rayon Mədəniyyət Evində, Şahbuz Rayon Uşaq musiqi məktəbinin kollektivi Şahbuz şəhərindəki "Araz" kinoteatrında, Kolanı Kənd Uşaq musiqi məktəbinin kollektivi isə Aşağı Qışlaq Kənd Mərkəzində konsert proqramı ilə çıxış ediblər.

Konsert proqramları başlamazdan əvvəl çıxış edənlər bildiriblər ki, görkəmli dövlət xadimi Heydər Əliyevin milli mədəniyyətə qoruyucu, yaradıcı münasibətinin, bu sahəyə tükənməz qayğı və diqqətinin əsas mənbəyi Vətən sevgisi, hüdudsuz xalq məhəbbəti idi. Aparılan müdrik siyasət nəticəsində milli mədəniyyətimiz beynəlxalq miqyasda tanındı, dünyanın diqqət mərkəzinə çıxarıldı. Xalqımızın zaman-zaman yaratdığı milli mədəniyyətin qorunub saxlanılması, zənginləşdirilməsi, gələcək nəsillərə çatdırılması sahəsində həyata keçirilən tədbirlər bütün nəsillərin ehtiram və minnətdarlıqla qarşıladığı tarixi xidmətdir.

Qeyd olunub ki, belə tədbirlər içərisində musiqi mədəniyyətinin inkişafı da diqqət mərkəzində saxlanılıb. Zəngin xalq musiqisinin tədqiqi, Azərbaycan bəstəkarlarının hərtərəfli fəaliyyətinin təmin və təbliğ olunması, yerlərdə musiqi məktəbləri şəbəkəsinin genişləndirilməsi ulu öndərin müəyyənləşdirdiyi siyasət kimi bu gün də uğurla davam etdirilir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında da musiqi mədəniyyətinin inkişafına ciddi önəm verilir. İstedadlı musiqiçilərin yetişdirilməsi, onların kütləvi-mədəni tədbirlərdə iştirakı təmin olunur. Hər il muxtar respublikada müsabiqələr keçirilir, qalib musiqiçilər mükafatlandırılır.

Konsert proqramlarında gənc musiqiçilərin ifasında səslənən Azərbaycan xalq musiqisi və bəstəkar mahnıları, həmçinin xarici ölkə bəstəkarlarının əsərləri tədbir iştirakçılarında xoş ovqat yaradıb.

**Xəbərlər şöbəsi**

Qələbə — 70

## 1941-1945-ci illər müharibəsi iştirakçısının 90 yaşı qeyd olunub

*1941-1945-ci illər müharibəsində Azərbaycanın mərd oğul və qızları xalqımızın ən ali keyfiyyətini – fədakarlığını, vətənpərvərliyini, mərdliyini nümayiş etdiriblər. Bu müharibədə ön cəbhədə xüsusi fəallıq göstərən, fiziki sağlamlığını itirən, doğma yurda sinəsi orden və medallarla qayıdan həmyerlilərimiz biz nəslin qürur və iftixar mənbəyidir.*

Dövlətimiz bu insanlara daim yüksək qayğı göstərir: müharibə veteranlarının sosial müdafiəsi ilbəil gücləndirilir, onların xatirəsinin əbədiləşdirilməsi istiqamətində tədbirlər görülür.

Muxtar respublikamızda da 1941-1945-ci illər müharibəsinin ağır və çətin sınaqlarından keçən veteranlara xüsusi diqqət və qayğı göstərilir. 1941-1945-ci illər müharibəsinin qurbanlarının xatirəsini yad etmək məqsədilə 9 May – Qələbə Günü münasibətilə Xatirə kompleksinin ziyarət edilməsi, 1941-1945-ci illər müharibəsində sağlamlığını itirən 121 nəfərə pulsuz minik maşınının verilməsi, 51 nəfər müharibə əlili və müharibə iştirakçısına hər ay Prezident təqaüdünün ödənilməsi, onların respublikanın sanatoriya və pansionatlarında müalicəyə göndərilmələri, ehtiyacı olanların texniki-bərpa vasitələri və protez-ortopediya məmulatları ilə təmin olunmaları, həmçinin yaşayış yerlərində abadlıq işlərinin aparılması bu diqqət və qayğının bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 12 mart 2015-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üzrə Tədbirlər Planı”nda müharibənin 90 yaşına çatmış veteranlarının yubileylərinin keçirilməsi də nəzərdə tutulub.

Tədbirlər planının icrası ilə bağlı olaraq, mayın 5-də Culfa rayonunun Yaycı kənd sakini, 90 yaşlı Cəfər Əliyevlə görüş keçirilib. Görüşdə Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev yubilyarı təbrik ediblər.

Qeyd olunub ki, muxtar respublikada 1941-1945-ci illər müharibəsi iştirakçılarının sosial müdafiəsi gücləndirilir, onların sağlam həyat tərzində yaşamaları üçün mühüm işlər görülür, cəmiyyətin həyatında fəal iştirakları diqqət mərkəzində saxlanılır.

Cəfər Əliyev müharibə iştirakçılarına qayğısını əsirgəməyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova müharibə iştirakçıları adından minnətdarlığını bildirib.

Sonda yubilyara hədiyyə təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Müharibə veteranları ilə görüş keçirilib





*Dünən Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbdə 1941-1945-ci illər müharibəsi veteranları ilə görüş keçirilib. Faşizm üzərində qələbənin 70 illik yubileyi münasibətilə keçirilən tədbiri Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Hüseyn Məmmədyarov açıb.*

Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov çıxış edərək bildirib ki, 1941-1945-ci illər müharibəsində ölkəmizdən 700 minə yaxın insan səfərbər edilərək cəbhəyə göndərilib. Naxçıvan Muxtar Respublikasından da 30 min nəfərə yaxın oğul və qızlarımız cəbhəyə yollanaraq bu dəhşətli müharibənin odlu-alovlu yollarından keçiblər. İgid həmyerlilərimiz azərbaycanlılardan ibarət müxtəlif diviziyaların tərkibində vuruşaraq faşistlər tərəfindən işğal olunmuş ərazilərin azad edilməsində qəhrəmanlıqla vuruşublar. Göstərdikləri igidliklərə görə muxtar respublikamızdan Abbas Quliyev, Nəcəfqulu Rəfiyev və Qəzənfər Əkbərov ən yüksək mükafata – “Sovet İttifaqı Qəhrəmanı” adına, digərləri isə müxtəlif orden və medallara layiq görülüblər.

Qeyd olunub ki, tarixi qələbənin qazanılmasında iştirak etmiş naxçıvanlıların keçdiyi döyüş yolu, onların qəhrəmanlığı dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq olunan “1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üzrə Tədbirlər Planı”na uyğun olaraq, muxtar respublikamızda bu cür tədbirlərin təşkil olunması bir daha müharibə veteranlarına göstərilən diqqətin nəticəsidir.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Qara Fərzəliyev, şuranın sədr müavini Heydər Heydərov, şuranın Naxçıvan şəhər təşkilatının sədri Firudin Süleymanov çıxış edərək döyüş xatirələrindən danışıb, ən böyük arzularının işğal edilmiş torpaqlarımızın azad olunması olduğunu bildiriblər.

Tədbirdə məktəbin şagirdlərinin ifasında “Qələbə günü” mahnısı səsləndirilib, şeirlər bədii qiraət olunub.

Sonda tədbir iştirakçıları faşizm üzərində qələbəyə həsr olunmuş “Hədəf Bakıdır” sənədli filminə baxıblar.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası üzrə 2015-ci ilin aprel ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 2490009 | 249001 | 252323 | 101,3 |
| 2. | Şahbuz rayonu | 680553 | 68055 | 68410 | 100,5 |
| 3. | Kəngərli rayonu | 629304 | 62930 | 63250 | 100,5 |
| 4. | Culfa rayonu | 1067307 | 106731 | 107163 | 100,4 |
| 5. | Ordubad rayonu | 998453 | 99845 | 100231 | 100,4 |
| 6. | Şərur rayonu | 1540567 | 154057 | 154517 | 100,3 |
| 7. | Sədərək rayonu | 181713 | 18171 | 18203 | 100,2 |
| 8. | Babək rayonu | 1745565 | 174557 | 174727 | 100,1 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 5356740 | 535442 | 681769 | 127,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **14690211** | **1468789** | **1620593** | **110,3** |

## Yüngül atletikanın kross qaçışı növü üzrə Naxçıvan Muxtar Respublika birinciliyi

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə dünən Duzdağ yolunda Heydər Əliyev adına Hərbi Liseyin kursantları, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında kross qaçışı növü üzrə Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Yüngül Atletika Federasiyasının birgə təşkil etdiyi birincilikdə 500 atlet qüvvəsini sınayıb.**



Yarışın bağlanış mərasimində çıxış edən Gənclər və İdman naziri Azad Cabbarov bildirib ki, muxtar respublikada idmanın bütün növlərində olduğu kimi, yüngül atletikaya da maraq yüksəkdir. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə keçirilən yarışda gənclərin bu idman növünə olan marağı göz önündədir. Təşkil edilən hər bir tədbir muxtar respublikada idman sahəsinə göstərilən diqqət və qayğının nümunəsidir.

Təhsil naziri Piri Nağıyev tədbirdə çıxış edərək qeyd edib ki, bu gün muxtar respublikamızda təhsilə diqqət və qayğı ən yüksək səviyyədədir. Yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi və ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchizatı bu qayğının bariz nümunəsidir. Məhz bunun nəticəsində ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri idmana da böyük maraq göstərirlər.

Sonra Yüngül Atletika Federasiyasının sədri Rövşən Məmmədov çıxış edib. Federasiya rəhbəri vurğulayıb ki, son zamanlar Naxçıvan Muxtar Respublikasında bu idman növü geniş yayılıb və gənclərin çox hissəsi bu sahəyə daha çox maraq göstərməyə başlayıb.

Birinciliyin yekun nəticəsinə əsasən, oğlanların mübarizəsində finiş xəttinə hamıdan tez çatan Heydər Əliyev adına Hərbi Liseyin kursantı Qəşəm Səfərov qalib adını qazanıb. Digər iki pillədə isə Naxçıvan Dövlət Universitetinin tələbəsi Samiq Səfərov və Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Kərim Quliyev qərarlaşıblar. Qızların mübarizəsində isə Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Rəngizər Rəhimova hamıdan sürətli qaçıb. Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Qaratel Cəlalova və Naxçıvan Tibb Kollecinin tələbəsi Gülafət Müslümova yarış birincisindən bir qədər geri qalıblar.

Sonda birinci yeri tutan idmançılara kompüter, ikinci yeri tutanlara printer, üçüncülüklə kifayətlənən idmançılara isə idman geyim formaları təqdim olunub. Federasiya tərəfindən birinciliyin ən azyaşlı idmançıları – Aysel Abdullayevaya və Cəmilə Allahverdiyevaya xüsusi hədiyyələr verilib.

## Beynəlxalq şahmat festivalının 4-cü turu liderlərin mübarizəsi ilə yadda qalıb

*Naxçıvan şahmatçısı “C” turnirində liderdir*



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş “Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalının 4-cü turuna dünən yekun vurulub.

“A” qrupunun liderləri – azərbaycanlı qrossmeyster Ülvi Bacarani və gürcüstanlı qrossmeyster Levan Pantsulaya bu turda üz-üzə gəliblər. Gərgin idman mübarizəsi şəraitində keçən görüşdə gürcüstanlı zəka sahibi qalib olub.

İlk 3 turdan sonra aktivinə 2 xal yazdıran Naxçıvanın zəka sahiblərindən FİDE ustası Pərviz Qasımov bu turda rusiyalı qrossmeyster Yevgeni Romanovla qarşılaşıb və məğlubiyyətlə üzləşib.

Ağ-qara taxtada mübarizə aparan digər həmyerlimiz, FİDE ustası Ürfan Sevdimalıyev isə İran şahmatçısı, beynəlxalq usta Ümid Norozinin müqavimətini qıra bilməyib.

Liderlər cədvəlində özünə yer alan azərbaycanlı qrossmeysterlər Rauf Məmmədov Azər Mirzəyevlə, beynəlxalq usta Zaur Məmmədov isə digər qrossmeysterimiz Eltac Səfərli ilə bu turda qarşılaşıblar. Maraqlısı odur ki, hər iki qarşılaşmada rəqiblər “sülh”ə razılaşıblar.

Hazırda “A” turnirinə gürcüstanlı qrossmeyster Levan Pantsulaya 4 xalla liderlik edir. Cədvəlin digər 14 pilləsində qərarlaşan zəka sahiblərinin isə 3 xalı var.

“Naxçıvan-2015” Beynəlxalq Şahmat Festivalının “B” turnirinin 6 lideri bu turda bir-birləri ilə mübarizə aparıblar. İki zəka sahibimiz Rəşad Zeynallı iranlı Doostkamı, Vəli Zeynalzadə isə Babək Sedgini məğlub edib. Aysel Məmmədova isə Behranq Kabudi ilə görüşdən məyus ayrılıb. Bu nəticədən sonra aktivində 4 xal olan azərbaycanlı zəka sahiblərindən Rəşad Zeynallı, Vəli Zeynalzadə və iranlı Behranq Kabudi “B” turnirində liderliklərini davam etdirirlər.

Beynəlxalq şahmat festivalının “C” turnirində isə liderlər cədvəlində 4 zəka sahibi qərarlaşıb. Sevindirici haldır ki, Naxçıvan şahmat məktəbinin yetirməsi Kənan Şərifzadə bu qrupda liderliyini qoruyur. O, 4-cü turda digər Naxçıvan şahmatçısı Siyavuş Bağırovu mat edib. Bu qrupda özlərinə yer alan Altay Eynullayev, Mətin Mürsəlli və Ləman Hacıyeva da bu turu qələbə ilə başa vurublar və maksimum nəticə ilə ilk dördlükdə qərarlaşıblar.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 360